Unudulmaz şəxsiyyətlər

# Kosmik uçuşların komandanı

**Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyətlərdən biri, artilleriya general-leytenantı, pilotlu gəmilərin sınaq uçuşları üzrə dövlət komissiyasının sədri, sovet kosmik proqramının banilərindən biri Kərim Kərimov olub. Doğum günündə paytaxtımızın Nəsimi rayonunda onun adını daşıyan 8 nömrəli tam orta məktəbə yollandım. Müsahibim Kərimovun doğma bibisi nəvəsi Şəfiqə Hacıyeva məktəbin müəllimidir.**



Şəfiqə xanım uşaqlığını bu məktəbdə keçirən Kərim müəllim haqqında o qədər şövqlə danışdı ki, bu görkəmli şəxsiyyətlə bir daha fəxr etdim. Şəfiqə müəllim dedi ki, 1917-ci il, noyabrın 14-də Bakıda mühəndis-texnoloq ailəsində anadan olmuş Kərim evdə üç qardaşın böyüyü olub.

İkinci Dünya müharibəsində iştirak edən K.Kərimov raket mühəndisi olub. O, "Katyuşa" kimi tanınan BM-13 yaylım atəş qurğusu üzrə texnologiyanı mənimsəyib və təkmilləşdirilməsində fəallıq göstərib. Bildiyimiz kimi, "katyuşa"ların müharibədə qələbənin təmin olunmasında böyük rolu olub. Məhz həmin vaxtdan da Kərimov həyatını raket texnikası ilə bağlayıb.

Müharibədən sonra K.Kərimov ballistik raketlərin radio-ölçü sistemlərinin yaradılması sahəsində çalışıb. O zaman elmi-texniki araşdırmalar nəticəsində raketlərin daxili parametrlərinə nəzarət edən "Don" radio-ölçü sistemini yaradıb və buna görə 1950-ci ildə ona Stalin mükafatı verilib. Sonrakı dövrdə kosmosa uçuşların başlanması və intensivləşməsində, süni peyklərin yaradılmasında o, bir alim və mütəxəssis kimi daim ön sırada olub. General-leytenant olan həmyerlimiz "Molniya-1" rabitə, "Meteor" meteroloji və Yerin məsafədən zondlama süni peyklərinin uçuşu üzrə Dövlət komissiyasının sədri vəzifəsinə təyin edilib. 1961-ci ildə insanın (Y.A.Qaqarin) kosmosa ilk uçuşu ilə əlaqədar "Lenin" ordeninə, Yerin məsafədən zondlama sistemlərinin və istiqamətləndirilmiş süni peykin yaradılmasına görə Lenin mükafatına layiq görülüb.

Fəxr edirik ki, sovet kosmonavtikasının nailiyyəti sayılan kosmik aparatlar məhz onun fəal iştirakı və birbaşa rəhbərliyi ilə yaradılıb. Bu sırada yeni nəsil "Soyuz" kosmik gəmiləri, "Salyut" orbital stansiyası, sonralar isə çoxmodullu "Mir" stansiyasının adlarını çəkmək olar.

K.Kərimov Moskvada məxfi mühitdə yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq, heç zaman öz vətəni ilə də əlaqələrini üzməyib, AMEA-nın Aerokosmik Tədqiqatlar Mərkəzinə əlindən gələn köməkliyi göstərib. Bir çox azərbaycanlı alimin bu sahədə inkişaf etməsi üçün şərait yaradıb. Ümummilli lider Heydər Əliyev Kərim Kərimovun fəaliyyətinə və şəxsiyyətinə yüksək qiymət verib və onu "Şöhrət" ordeni ilə təltif edib. İstehsalat-təşkilat və elmi fəaliyyətinə görə general-leytenant Kərim Kərimov Sovet İttifaqı Qəhrəmanı fəxri adına, iki dəfə Lenin ordeninə, iki dəfə Dövlət mükafatı laureatına layiq görülüb. Kərim Kərimov AMEA-nın fəxri üzvü kimi də hər zaman bu sahədə inkişaf etmək istəyən alimlərimizə həyan olub.

Böyük şəxsiyyətin adını daşıyan məktəbin direktoru Aytən Baxşiyeva söhbətimiz zamanı Kərim müəllimin yeni nəsil davamçılarının yetişəcəyinə inandığını söylədi. Bir çox şagirdin kosmik sahəyə maraq göstərdiyini qeyd etdi. Bu il məktəb məzunlarından 25-i xarici ölkələrin nüfuzlu universitetlərinə, 40 şagird isə yerli universitetlərə daxil olub. Elə bu faktın özü təhsil ocağında Kərim Kərimovun adının necə uca tutulduğuna sübutdur.

Əlbəttə, Azərbaycanın kosmik elm sahəsində inkişaf etməsi zamanın tələbidir. Bu gün bizim süni peykimiz artıq kosmosdadır. Bir vaxtlar xəyal etdiyimiz məsələlər indi gerçəyə çevrilməkdədir. Kərim müəllim, bax, belə Azərbaycan arzulayırdı. Elmi, tərəqqini, innovasiyaları, texnoloji inqilabdan bəhrələnən, yeniləşən Azərbaycan istəyirdi.



**N.HƏSƏNZADƏ,**
**"Xalq qəzeti"**